ÜÇ ƏSRİN QƏZETİ Kaspi

# TURİZM SEKTORUNUN NOVRUZ GÖZLƏNTİSİ



İnsanlar səyahət üçün darıxıblar. Pandemiya ilə bağlı qadağaların böyük ölçüdə aradan qaldırılması Novruz tətilində turizm sahəsində dirçəlişə təsir edəcək. Amma...

ZƏRİF SALMANLI
zarifsalmali@kaspi.az

Baharın müjdəçisi Novruz qapımızı döyür. Ölkəmizdə bayram münasibətilə tətil elan olunur. Tətil varsa, deməli, istirahət də var. Səyahəti sevən insanlar səbirsizliklə tətil günlərini gözləyirlər. İş yorğunluğunu atmaq istəyənlər istirahət üçün müxtəlif ərazilərə üz tutacaqlar. Novruz tətilindən turizm sektorunun gözləntisi nədir? Pandemiya ilə bağlı tətbiq olunan qadağaların bayram ərəfəsində yumşaldılması turizm sektorunun canlanmasına təsir edəcəkmi?

### DAHA ÇOX O ÖLKƏLƏRDƏN GƏLİRLƏR Kİ...

Turizm eksperti Ramin Zamanov deyir ki, Novruz bayramında Azərbaycana gələn turistlər, əsasən, o ölkələrdən olur ki, orada da bu bayramı qeyd edirlər: "Çünki həmin ölkələrdə də bayram tətili olur. O ölkələrdə ki, tətilə çıxırlar, iş olmur, oradan gələ bilərlər. Məsələn, Rusiyadan Novruz ərəfəsində çox turist gəlmir. Çünki onlar bu bayramı qeyd etmirlər. Amma İrandan, Qazaxıstandan, Özbəkistandan gələ bilərlər".

### ARTIM GÖZLƏNİLMİR, ÇÜNKİ...

R.Zamanov bildirir ki, quru sərhədlər açıq olmadığı, həmçinin təyyarə reyslərinin sayında məhdudiyyətlər olduğu üçün turistlərin sayında böyük fərq gözlənilmir: "Novruz bayramı ərəfəsində turistlər ən çox İrandan gəlirdi. Hava nəqliyyatı ilə yox, avtobusla və ya şəxsi avtomobillə səyahət edirdilər. Çünki avtobus və ya avtomobillə gəlmək daha ucuz başa gəlirdi. Amma nəzərə alaq ki, bu il ancaq hava xətti ilə gələ bilərlər. Çünki Azərbaycanda quru sərhədləri açıq deyil. Təyyarə reyslərində məhdudiyyətləri nəzərə alsaq, bu sahədə güclü artım olacağını düşünmürəm. Yəni əvvəlki illərdəki kimi böyük bir fərq gözlənilmir. Amma nisbətən artım ola bilər".



Ramin Zamanov

### HƏR ŞEY QAYDASINDADIR

R.Zamanovun sözlərinə görə, turizm sektoru pandemiyadan ən çox zərər görən sahələrdən olduğu üçün ona diqqət artırılıb: "Turistlərin gəlişinə hazırıq. Restoranların, otellərin də fəaliyyətində hər şey qaydasındadır. Otellərin əksəriyyəti artıq fəaliyyətini tam bərpa etməyə çalışır. Maksimum çalışırlar ki, yaxşı xidmət göstərsinlər. Çünki bu sektor pandemiyanın ən çox zərər vurduğu sahələrdəndir. Turizm agentliyi otellərin fəaliyyətinə diqqəti bir az da artırıb ki, bu sektoru bərpa etsinlər".

## YERLƏŞDİRMƏ BAXIMINDAN CİDDİ SIXINTI YOXDUR

Azərbaycan Turizm və Menecment Universitetinin Turizm və qonaqpərvərlik fakültəsinin dekanı Rəhman Səfərov deyir ki, pandemiyada insanlar evdə oturmaqdan beziblər deyə, səyahət etməyə həvəslidirlər: "50 faiz olmasa da, artım gözlənilir. Çünki pandemiya ilə bağlı tətbiq edilən qadağalarda nisbətən yumşalma var. Bu da turizmə öz təsirini göstərəcək. İnsanlar səyahət etməkdən ötrü darıxıb".

### "ARTIQ CİDDİ SIXINTI YOXDUR"

R.Səfərov bildirir ki, hazırda turistləri yerləşdirməklə bağlı əvvəlki problemlər mövcud deyil: "Azərbaycanda son 10 ildə mehmanxanaların çarpayı sayı ciddi şəkildə artıb. Yəni 2000-ci illərin əvvəllərində bizdə çarpayı sayı çox az idi, artıq 50 min üzərindədir. Yəni turistləri yerləşdirmək baxımından ciddi sıxıntı yoxdur".



Rəhman Səfərov